

Aydın Kazımzadə

**Qısa zaman kəsiyində Azərbaycan səhnəsində, kinosunda, televiziyasında, radiosunda öz tükənməz və coşub-daşan yaradıcılığı ilə dərin iz qoymuş böyük sənətkar, Azərbaycanın əməkdar artisti, Dövlət mükafatı laureatı Səməndər Rzayev haqqında söhbətimə onun C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında xarici və sovet filmlərinin dublyajında iştirakından başlamaq istəyirəm.**




# Kral Aktyor

## Səməndər sənətinin böyüklüyü haqqında

S.Rzayevi kinostudiyada tez-tez görmək olardı. O, kinostudiyanın Dublyaj şöbəsində müxtəlif filmlərə səsini yazdırardı. Rejissor Arif Həbibinin dublyaj etdiyi məşhur "Kral Lir" filmində baş qəhrəmanı - Kral Liri məhz Səməndər azərbaycanca səsləndirmişdi. Moskvada milli dillərə dublyaj olunmuş filmlərin ümumittifaq müsabiqəsində "Kral Lir" göstərilərkən mötəbər komissiya üzvləri dublyajın peşəkarlığını, eyni zamanda gənc aktyor Səməndərin baş rolu yüksək peşəkarlıqla səsləndirməsini xüsusi qeyd etdilər. Bu dublyaj işi SSRİ Dövlət Kinematoqrafiya Komitəsi tərəfindən yüksək qiymətləndirildi. O vaxtdan S.Rzayev kinostudiyada Kral Aktyor adını qazandı.



Çoxşaxəli yaradıcılığa malik, geniş diapazonlu, istedadlı aktyor Səməndər Mənsim oğlu Rzayev 1945-ci il yanvarın 2-də Ağsu şəhərində dünyaya göz açmışdır. Orta məktəbdə oxuduğu illərdə teatra və bədii qiraətə maraq göstərdiyi üçün o, rayondakı dram dərnəyində müxtəlif tamaşalarda rollar ifa etmişdir. Elə aktyor olmaq arzusu ilə də Bakıya gələrək, 1964-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Təhsil aldığı illərdə görkəmli sənətkarlardan Rza Təhmasib, Mehdi Məmmədov, Adil İsgəndərov və Nəsir Sadıxzadə ona sənətdən dərs demişlər.

Səməndər hələ tələbə ikən qiraət ustası kimi televiziyada çıxış edirdi. Radioda yenicə açılmış "Bulaq" proqramının ilk aparıcısı olmuşdur. Bu proqram xalq arasında o qədər populyarlaşmışdı ki, onu "Səməndər bulağı" kimi tanıyır və sevirdilər. "Bulaq" tələbə - aktyora ümumxalq məhəbbəti qazandırmışdı.

Gənc aktyor 1968-ci ildə, institutu bitirməmişdən bir il əvvəl baş rejissor Tofiq Kazımov onu Azərbaycan Dövlət Dram Teatrına dəvət edir və Səməndərə "Hamlet" tamaşasında Horatsio rolunu tapşırır. İlk rol gənc tələbəyə uğur gətirir. Qısa zamanda teatr səhnəsində müxtəlif rollar ifa edən Səməndər kollektivin, tamaşaçıların hörmətini qazanır, tənqidin diqqətini özünə cəlb edir. Bundan sonra o, Xacə Nizam ("Xəyyam"), Knyaz ("Knyaz"), İbn Yəmin ("İblis"), Hatəmxan ağa ("Müsyö Jordan və dərviş Məstəli-şah"), Vaqif ("Vaqif"), Valentin ("İnsan"), Fazil Küleyni ("Dəli yığıncağı"), Balaxan ("Aydın"), Qlumov ("Müdriklər"), Kaliban ("Fırtına") və b. bu kimi dəyərli surətlər yaradır.

Aktyor kinoya 1968-ci ildə rejissor A.Babayevin "Uşaqlığın son gecəsi" filmində kiçik bir epizoda çəkilməklə gəlmişdir. Xalq artisti Yaşar Nuri Səməndərin ilk rolu barədə xatirəsində belə yazır: "İlk filmi haqqında bir özü bilirdi, bir də mən. "Uşaqlığın son gecəsi" filmi başlanan kimi qaranlıqda gəzən iki milis işçisi. Bax, onlardan biri Səməndər idi."

Səməndərin kinoda ilk böyük işi isə rejissor H.Seyidbəylinin 1973-cü ildə çəkdiyi "Nəsimi" tarixi-bioqrafik filmindəki Şirvanşah İbrahim obrazıdır. O, bu rol üzərindəki işi barədə demişdir: "Uşaqlığın son gecəsi"ndəki epizodik rolum nəzərə alınmazsa, Şirvanşah İbrahim mənim kinoda ilk işimdir. Bu, çox mürəkkəb bir obrazdır, filmdə əsas yerlərdən birini tutur".

S.Rzayev kinoda 20-dən artıq filmdə irili-xırdalı rolda çəkilmişdir. Bunların arasında "Qatır Məmməd" (1974, Kəndxuda Əhəd), "Çarvadarların izi ilə" (1974, Səməndər), "Ad günü" (1977, qonşu Faiq), "Od içində" (1978, Tomar bəy), "Babək" (1979, İbn Bais), "Babamızın babasının babası" (1981, Əliquliyev), "Evlənmək istəyirəm" (1983, Həsənağa), "Qara gölün cəngavərləri" (1984, dükançı), "Bağ mövsümü" (1985, Ağamirzə), "Bəyin oğurlanması" (1985, Hidayət müəllim), "Xüsusi vəziyyət" (1986, qəzetin məsul katibi), "Şəhərli biçinçilər" (1986, Bünyad) və s. bədii, televiziya bədii filmləri vardır.

Görkəmli rejissor, aktyor və pedaqoq Mehdi Məmmədov S.Rzayev barəsində demişdir: "O, obrazlarla çox gözəl dil tapa bilir. Peşəkar teatr xadimi olmadığıma baxmayaraq, bəzən onun potensial gücünə, qabiliyyətinə qıbtə edirəm".

Xalq artisti, rejissor Tofiq Tağızadənin xatirələrindən: "Səməndər çox özünəməxsus aktyor idi. Onun yaradıcılığı təkcə teatrımıza yox, kinomuza da işıq saçmışdı. İki filmdə onunla işləmək mənə nəsib olub: "Babamızın babasının babası" və "Bağ mövsümü". Birinci filmdə o, epizodda idi. Amma yadımdadır, bu filmi Moskvada təhvil verəndə tənqidçilərdən biri bu epizod haqqında belə dedi: "Bu, sovet kinosu müntəxabatının ibrətamiz epizodlarından biridir".

Xalq artisti Həsən Məmmədov Səməndərdən söhbət düşəndə deyirdi: "Mən onu "Bağ mövsümü" filmində işləyəndə tanıdım. Qəribə xasiyyəti var idi Səməndərin. Çox vaxt çəkilişə elə birbaşa məşqsiz başlayırdı. Çəkiliş meydançasında improvizələri yerinə düşərdi. Ona görə də hər şey öz qaydasında olardı. O, bir aktyor kimi nə qədər yüksəkdə dururdusa, insan kimi bir o qədər də sadə və təvazökar idi".

"Babamızın babasının babası" kinokomediyasında göstərilir ki, Əziz baba vəzifəli şəxsin-raykom katibi Əliquliyevin oğlu Cəfərə zorla ərə verilən gənc qız Zeynəbi toy günü atın tərkinə alib qaçırır. Filmdə Əliquliyevin obrazını S.Rzayev yaratmışdır. Əliquliyevin düşdüyü vəziyyəti aktyor o qədər təbii və inandırıcı oynayır ki, onun eyni zamanda komik və dramatik ifasına, təpənin başında rəqs edə-edə keçirdiyi əsəb gərginliyinə heyran qalmaya bilmirsən.

Filmlərdə və tamaşalardakı rollar böyük, ya da kiçik olur. Bu kiçik rolları ətəqana gətirmək, onu tamaşaçının hafizəsində yaşatmaq aktyorun peşəkarlığından çox asılıdır. Təsadüfi deyil ki, kiçik rolları həvəslə oynayan aktyor bununla bağlı maraqlı bir fikir söyləmişdi: "Kiçik açarla böyük qapılar açmaq olar." Bu fikri o, filmlərdə ona tapşırılan epizodik rollarda ustalıqla reallaşdıra bilirdi.

Böyük sənətkar S.Rzayev 29 il bundan əvvəl bizi tərk etsə də, onun şirin və ecazkar danışığı bu gün də qulaqlarımızda səslənir: "Ay camaat, bu kino çox qəliz məsələdir, həm qəlizdir, həm də vacibdir". Və yaxud çəkiliş meydançasına toplaşmış kənd camaatına üzünü tutub uca səslə deyir: "Ə, nə təfavütü var, ə, bunun, burdan eşit, burdan da oyna da..."

S.Rzayev xalq arasında zərb-məsələ çevrilmiş bu sözləri rejissorlardan Ceyhun Mirzəyev və Vaqif Mustafayevin "Bəyin oğurlanması" filminin qəhrəmanı - kolxoz sədri Hidayət müəllimin dili ilə bizə çatdırır. Filmə baxarkən aydın olur ki, aktyor Hidayət müəllimin timsalında bir çox kolxoz sədrlərinin obrazını yaratmışdır. Kolxoz sədrinin gah komik, gah da ciddi şəkil alması biz tamaşaçılarda belə fikir yaradır ki, o, əhali ilə nə qədər səmimi danışsa da, bu, ilk baxışdan belə görünür. Hidayət müəllimin danışığında amiranəlik var. O, camaat qarşısında çıxış edərkən sifət cizgiləri belə sərtləşir. Ciddi şəkil alır, baxışlarındakı sərtlik açıq-aydın görünür.

Belə bir amiranə nitqli, sərt baxışlı personajla rejissor C.Mehdiyevin "Evlənmək istəyirəm" musiqili kinokomediyasında da rastlaşırıq. Bu, S.Rzayevin yaratdığı məşhur Həsənağa obrazıdır. Aktyor istedadı və bacarığı sayəsində adi bir deyim tərzilə, xırda ştrixlərlə sosial bərabərsizliyin tipik nümayəndəsinin surətini ekranda ustalıqla canlandırır.

Bütün varlığını böyük amal uğrunda mübarizəyə həsr edib bu yolda həyatını qurban vermiş məşhur Azərbaycan sərkərdəsi Babəkə həsr olunmuş eyni adlı filmdə qəhrəmanın yadelli işğalçılara qarşı mübarizəsindən danışılır. Bu filmdə S.Rzayev özünü Babəkə dost kimi göstərən, əslində isə məqamı gələndə onu ərəb sərkərdəsi Afşinə satan İbn Baisin surətini yaratmışdır. Aktyor yığcam oyunu ilə personajının çirkin daxili aləmini, pozğun mənəviyyatını sənətkarlıqla açıb göstərir.

Səməndər uzun illər kinostudiyanın Xronika və Dublyaj şöbələrinin, "Mozalan" satirik kinojurnalının işində də fəal çalışmış, radio ədəbi-bədii verilişlərində qızıl fonda daxil edilmiş obrazlar qalereyası yaratmışdır.

Teatrda olduğu kimi, kinoda da Səməndər Rzayevin özünəməxsus yaradıcılıq yolu var idi. Gur səsi, şaqraq gülüşləri, koloritli xarakteri, yaratdığı obrazların, tipajların inandırıcı və dolğun olması, səciyyəvi xüsusiyyətləri ilə bu aktyor, ustad sənətkar özünü tamaşaçılara sevdirə, onların qəlbinə yol tapa bildi. Adını incəsənət, mədəniyyət tarixinə qızıl hərflərlə yazdırdı. Onun kinoda son işi rejissor Əbdül Mahmudovun "Şəhərli biçinçilər" televiziya bədii filmində (1986) Bünyad rolu oldu.



Görkəmli sənətkar S.Rzayev 1986-cı il martın 27-də, qəribə də olsa, məhz Beynəlxalq Teatr Günü gözlərini əbədi yumdu.

Bu gün Səməndərin oğlu Rəşid atasının yolunu davam etdirir, qızı Rübabə xanım Azərbaycan radiosunda çalışır, incəsənət aləmində qələm sahibi kimi tanınır. Səməndər sənətdə, övladlarının, həmkarlarının, milyonlarla tamaşaçıların qəlbində yaşayır, həmişə də yaşayacaqdır.